DOI: https://doi.org/10.36719/3005-3137/7/38-46

**Qənirə Əsgərova**
Naxçıvan Dövlət Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/ 0009-0005-7756-8029
asgerovaganira@gmail.com

# Bəxtiyar Vahabzadənin dilində sintaktik vahidlərin rolu

## Xülasə

Məqalədə Azərbaycanın tanınmış şairi Bəxtiyar Vahabzadənin yaradıcılığı əsasında bədii üslubun formalaşmasında sintaktik vahidlərin rolu araşdırılır. Hər hansı bir şairin dilinin aydınlaşdırılmasında sintaktik səviyyənin – söz birləşməsi və cümlələrin düzülüşü və quruluşu əhəmiyyətli mövqeyə malikdir. Araşdırma göstərir ki, sintaktik seçimləri təkcə dilin texniki tərəfi kimi qiymətləndirmək düzgün deyil, onlar həm də mövzunun necə çatdırılmasına, ritm yaradılmasına, oxucunun təxəyyülünü zənginləşdirilməyə dərindən təsir edən dil vahidləridir. Bəxtiyar Vahabzadənin əsərlərindəki sintaktik vahidlərin tədqiqi sintaksisin oxucunun emosional hisslərinə və intellektual səviyyəsinə birbaşa təsir edərək üslub və məna daşıyıcısı kimi necə xidmət etdiyini göstərir. Məqalədə ədəbi üslubda sintaktik vahidlərin əhəmiyyəti təhlil edilərək vurğunlanır ki, onlar müəlliflərin fikirlərinin düzgün ifadə edilməsində həlledici rola malik dil vahidləridir. Çox vaxt yazının texniki tərəfi kimi qəbul edilən sintaksis, əslində, ədəbi əsərin estetik və emosional təsirini formalaşdıran güclü vasitələrdəndir. Bədii üslub çox vaxt söz seçimi, obrazlılıq və obrazlı dillə əlaqəli bir termin kimi təqdim edilir. Doğrudur, bunlar əsərin estetikasına əhəmiyyətli dərəcədə təsir edir, lakin cümləni tənzimləyən qrammatik quruluş kimi sintaksis də vacibdir. Sintaktik seçimlər söz ehtiyatı və ya obraz yaratmaqda ədəbi üslubun bir hissəsidir və sintaktik vahidlərin yenilənməsi və ya dəyişdirilməsi müxtəlif emosional reaksiyalar yaratmağa imkan verir. Məlumdur ki, sintaksis linqvistik mənada cümlələrin quruluşunu tənzimləyən qaydalara, o cümlədən söz sırası, durğu işarələri və müxtəlif cümlə komponentləri arasındakı əlaqəyə aiddir. Lakin bədii üslubda sintaksis tez-tez ritm və temp yaratmaqdan tutmuş müəyyən mətn elementlərinin təşkil edilməsi kimi müxtəlif məqsədlərə xidmət edir. Bədii dildə sintaksis nümunələri üslub mahiyyəti qazanır. Üslub keyfiyyəti qazanan sintaktik nümunələr mətnin emosional və estetik təsirləri ilə necə əlaqəli olduğunu göstərir. Bəxtiyar Vahabzadənin yaradıcılığı göstərir ki, sintaktik vahidlərin

səciyyələndirmədə də mühüm rolu vardır. Sintaksisdən istifadə etməklə şairlər xarakterlərin psixoloji və sosial xüsusiyyətlərini əks etdirir, onların psixi vəziyyət və ya sosial mənşəyindəki fərqləri üzə çıxarır. Sintaktik vahidlər mətnin həm estetik keyfiyyətlərinə, həm də emosional dərinliyinə təsir edərək bədii üslubun əsasında dayanır.

***Açar sözlər:*** *dil, üslub, söz, ifadə, bədiilik, B.Vahabzadə*

**Ganira Askerova**
Nakhchivan State University
Doctor of Philosophy in Philology, Associate
https://orcid.org/ 0009-0005-7756-8029
asgerovaganira@gmail.com

## The role of syntactic units in the language of Bakhtiyar Vahabzade

### Abstract

The article examines the role of syntactic units in the formation of artistic style based on the work of the famous Azerbaijani poet Bakhtiyar Vahabzadeh. The syntactic level - word combinations and the arrangement and structure of sentences - plays an important role in clarifying the language of any poet. The study shows that syntactic choices are not only correct to evaluate as a technical aspect of language, but they are also linguistic units that deeply affect how the subject is conveyed, rhythm is created, and the reader's imagination is enriched. The study of syntactic units in the works of Bakhtiyar Vahabzadeh shows how syntax directly affects the emotional feelings and intellectual level of the reader, serving as a carrier of style and meaning. The article analyzes the importance of syntactic units in literary style and emphasizes that they are linguistic units that play a decisive role in the correct expression of authors' ideas. Syntax, which is often perceived as a technical aspect of writing, is actually one of the powerful tools that shape the aesthetic and emotional impact of a literary work. Artistic style is often presented as a term related to word choice, imagery, and figurative language. It is true that these significantly affect the aesthetics of the work, but syntax is just as important as the grammatical structure that governs the sentence. Syntactic choices are part of literary style in creating vocabulary or imagery, and the renewal or replacement of syntactic units allows for the creation of various emotional responses. It is known that syntax in the linguistic sense refers to the rules that regulate the structure of sentences, including word order,

punctuation, and the relationship between various sentence components. However, in artistic style, syntax often serves a variety of purposes, from creating rhythm and tempo to organizing certain text elements. In artistic language, syntax patterns acquire stylistic essence. Syntactic patterns that acquire stylistic quality show how the text is related to its emotional and aesthetic effects. Bakhtiyar Vahabzadeh's work shows that syntactic units also play an important role in characterization. Using syntax, poets reflect the psychological and social characteristics of their characters, revealing differences in their mental state or social background. Syntactic units affect both the aesthetic qualities and emotional depth of the text, forming the basis of artistic style.

***Key words:*** *language, style, word, expression, artistry, Bakhtıyar Vahabzade*

## Giriş

Bədii üslub, dildən sənətkarlıqla istifadə olunması nəticəsində yaranır. Bu üslubda dilin hərtərəfli vasitələri, o cümlədən sintaktik vahidlər, fikrin daha dərin və təsirli şəkildə istifadə olunmasını təmin edir. Şeir ritmikliyi və emosional gücü ilə dilin fərqli bir forması kimi özünü göstərir. Onun quruluşunda əsas rol oynayan elementlərdən biri sintaksisdir. Belə ki, cümlə daxilində sözlərin quruluş və ardıcıllığını, dildə aydınlığı və məntiqi idarə edən qaydalara əməl etmək sintaksislə əlaqəlidir. Poeziyada sintaktik vahidlərin üzərində şair əməliyyatı çevik, eksperimental rol oynayır ki, bu da yeni mənaların yaranmasına səbəb olur:

Özümə də görünməyən
Könlüm mənim
Duyğum mənim,
Sövdam mənim…
Azadlığım – öz mənəvi dünyam mənim (Vahabzadə, 2004, I c, s.94).

Burada söz bürləşmələrinin yer dəyişməsi, “azadlığım” sözünün əlavəsi kimi özünü göstərən III növ təyini söz birləşməsinin xəbər mövqeyində işlənməsi bədii dilin özəlliklərini təsdiq edir. Onu da qeyd edək ki, şair söz-ifadə yaradıcılığı ilə dilimizin leksik-qrammatik və üslub baxımından inkişaf və zənginləşməsində mühüm rol oynamışdır. Bəxtiyar Vahabzadənin dilində şairin öz qələminə məxsus olub dilimizin sözləri əsasında yaradılan, əsas tərəfi adlarla ifadə olunan söz birləşmələri, yəni ifadələrlə bağlı aşağıdakı örnəklər səciyyəvidir: “vicdan güzgüsü”, “kainatın qulağı”, “işıqsız ulduz”, “idrakın gözləri və s. (Əsgərova, 2015, s. 55). B.Vahabzadənin qələmindən çıxan əsas tərəfi adllarla ifadə olunaın söz birləşmələri

daha çoxdur:

Ney tutub qəm şikəstəsi,
Vicdan xəstəsiyəm, vicdan xəstəsi (Vahabzadə, 2004, I c, s.267).

Baxıb vicdan güzgüsünə
Özümü danlayıram.
Mənim solğun sözlərimdə,
Heç dil aça bildimi ? (Vahabzadə, 2004, I c, s. 15)

Məlumdur ki, sintaktik vahidlər bir dildə cümlə quruluşunun tikinti materialıdır. Bu vahidlərin tərkibinə daxil olan sözlər, ifadələr və cümlələr mənanı çatdırmaq üçün xüsusi əhəmiyyət daşıyır. Cümlədə əsas sintaktik vahidlər qrammatik qaydalara uyğun olaraq xüsusi üsullarla, əlaqələrlə birləşirlər. Şeir dilində isə bu vahidlər nəsrin tipik məhdudiyyətlərindən kənara çıxan müxtəlif effektlər yaratmaq üçün dəyişdirilə, yenidən sıralana və ya parçalana bilər:

Düşüncələr – havadakı quşa bənzər,
Sözlər – quşa atdığımız daşa bənzər.
Dəyə bilsə, səninkidir,
Dəymədisə…
Daşdan küsmə,
Özündən küs (Vahabzadə, 2004, I c, s. 94).

Sintaksis ənənəvi olaraq qrammatik düzgünlük qaydalarına riayət etdiyi halda, poetik dil çox vaxt bu qaydalardan kənara çıxır. Şeirdə sintaksis emosionallığa səbəb olmaq, mənanı gücləndirmək və ya oxucunu düşüncələrə istiqamətləndirmək üçün müxtəlif yollarla idarə oluna bilər. Sintaksisin bu çevikliyi şairlərə oxucularla daha mürəkkəb, emosional səviyyədə əlaqə yaratmağa imkan verir, şeirin sənətə çevrilməsinə zəmin yaradır.

Şairlərin sintaksisdən istifadə etdiyi əsas üsullardan biri cümlə quruluşu ilə bağlı qrammatik qaydaların pozulmasıdır. Nəsrdə cümlələr adətən sadədir və söz sırasına əməl edilir. Şeirdə bu qayda oxucunu fasilə verməyə və mənalara yenidən diqqət etməyə yönəltmək məqsədi ilə dəyişdirilə bilər. Məsələn, aşağıda şair ənənəvi sintaktik axının inversiyasını yaradaraq xüsusi sözlərə diqqəti cəlb etmiş, əhval-ruhiyyəni bildirmiş və daha dərin, daha mücərrəd məna çalarlarlarını ortaya qoymuşdur:

Elə bil dünəndir, Sabir bağında
Çıxdın qabağıma ağ çiçək kimi.
Elə bil dünəndir, ağ paltarında
Qondun evimizə kəpənək kimi (Vahabzadə, 2004, I c, s. 97).

Burada tabeli mürəkkıəb cümlələrin (mübtəda budaq cümləsi) xəbərini ifadə edən "çıxdın" və "qondun" sözlərinin yerindən çıxarılıb əvvələ gətirilməsi tipik sintaktik düzümü, söz sırasını pozur. "Müxtəlifsistemli dilləri bir-birindən struktur baxımdan fərqləndirən ən mühüm cəhətlərdən biri də cümlədə söz sırasıdır. Bu xüsusiyyət özünü daha çox Hind-Avropa və türk dillərinin sintaktik strukturunda büruzə verir" (Nağıyeva, 2024, s. 21). Qrammatik baxımdan, söz sırasının pozulması normaya zidd olsa da, bədii üslubda bu hadisə oxucunu düşüncələrinə yol açır, fikrin ekspressivliyini əsaslandırır. "Söz sırası rəngarəng emosiyaların ifadə vasitəsidir. Bir qayda olaraq emosiyalar sözlərin tərs sırası ilə verilir" (Əlizadə, 1998, s. 69). B.Vahabzadə yaradıcılığında söz sırasının pozulması istər sadə, istərsə də mürəkkəb cümlələrdə müəyyən üslubi keyfiyyətlərə malikdir. Sadə cümlənin məqsəd və intonasiyaya görə bütün növlərində söz sırasının pozulmasına təsadüf edirik.

Q.Kazımov yazır: "Canlı danışıq dilində söz sırası normaları pozulmuş olsa da, nitqin ritmik, melodik axını, fasilə, vurğu fikrin düzgün başa düşülməsinə imkan yaradır" (Kazımov, 2007, s. 164). B.Vahabzadə yaradıcılığında sadə cümlənin bütün növlərində söz sırasının pozulması özünü göstərir. Sual və nida cümlələrində söz sırasının pozulması müəyyən üslubu xüsusiyyətlər daşıyır.

Qorxmuram, düşmənim qoy min-min olsun.
Neyləyər mənə? (Vahabzadə, 2004, I c, s. 41).

Niyə özümüzü ögey sayaq biz?
Niyə atamızı tanımayaq biz (Vahabzadə, 2004, I c, s. 46).

Ayıldıb atamı,
bir ürək kimi
Milyon ürəklərdə döyündü Cəlil ! (Vahabzadə, 2004, I c, s. 48).

Qeyd edilən cümlələrdə söz sörasının pozulması şeirə bir emosionallıq, ekspresivlik gətirmişdir.

"Nəqli cümlələrdə söz sırasının pozulması həm qrammatik, həm də aktual üzvlənmə baxımından müşahidə olunur. Məlumdur ki, danışıq dilində söz sırasının

pozulması kommunikativ məqsədlə əlaqədardır" (Qasımova, 2022, s. 59).

B.Vahabzadənin dili zəngin sintaktik quruluşa malikdir. O, emosional və ictimai yüklü fikirləri ifadə etmək üçün mürəkkəb sintaktik konstruksiyalardan, mürəkkəb cümlələrdən istifadə etmişdir. Şairin istifadə etdiyi tabesiz mürəkkəb cümlələr şairin emosional dünyasını, daxili təlatümlərini və ictimai problemlərə münasibətini dolğun şəkildə əks etdirmək imkanı yaradır.

Vətən də var,
Millət də var (Vahabzadə, 2004, I c, s. 305).

Bəxtiyar Vahabzadənin dilindəki tabesiz mürəkkəb cümlələr tez-tez sintaktik paralelizm üsulu ilə qurulur. Bu, xüsusilə onun publistik çıxışlarında və poetik mətnlərində özünü göstərir. Paralel cümlə strukturları oxucuya fikrin vahid kontekstdə təkrar və möhkəmləndirilmiş şəkildə çatdırılmasına xidmət edir. Tabesiz mürəkkəb cümlələrin istifadəsi B.Vahabzadə əsərlərində uslübi baxımdan emosionallıq yükünü artırır, **ritorik təsiri gücləndirir.** Onun tabesiz mürəkkəb cümləyə verdiyi uslubi yüklər, sintaktik incəliklər və emosional çalarlar onun nitqinin gücünü artırır, bədii ifadə imkanları, həm də onu emosional olaraq təsirləndirir.

Şairi kimsəyə dəyişmərəm mən
Onlar hər cilvədə min sirr axtarır (Vahabzadə, 2004, I c, s. 42).

B.Vahabzadə yaradıcılığı tabeli mürəkkəb cümlə zənginliyi ilə seçilir. Bu cümlələr yalnız məntiqi əlaqə yaratmaqla kifayətlənmir, həm də şairin fəlsəfi düşüncəsini, duyqusal dünyasını ifadə edir. Bu sintaktik vahidlərlə B.Vahabzadənin poetik nitqində ideya-məzmunun dərinləşdirilməsinə xidmət edir. Bu quruluşlar vasitəsilə o, mürəkkəb düşüncələri ardıcıl və məntiqli şəkildə çatdırır. Şairin dilindəki cümlə quruluşları çox vaxt xalq danışıq dilinə yaxın olsa da, bədii-fəlsəfi məna yükü daşıyır. Məhz bu baxımdan da şairin dilindəki mürəkkəb cümlələrdə inversiyaya rast gəlirik. Şərt budaq cümləsinin "budaq + baş" tipi daha çox işlənir və rəngarəng bağlayıcı vasitələrilə diqqəti cəlb edir. Amma B.Vahabzadə yaradıcılığında şərt budaq cümləsinin II tipində inversiya baş verdiyini, "baş + budaq" tipinə keçdiyini görürük:

Varlığı heçliyə mən dəyişərdirm,
Əgər bu dünyada sən olmasaydın (Vahabzadə, 2004, II c, s. 7).

Biz belə məqamlara, yəni şərt budaq cümləsinin inversiyasına klassik ədəbi nümunələrimizdə, o cümlədən İ.Nəsiminin, Ş.İ.Xətainin, Q.Bürhanəddinin yaradıcılı-

ğında təsadüf edirik. "...budaq cümlələrin baş cümlədən sonra inversiyasına, əsasən Azəbaycan danışıq dilində və bədii əsərlərdə rast gəlinir. Bədii əsərlərdə inversiyanın baş verməsi danışıq dilinin ədəbi dilə təsiri kimi qiymətləndirmək olar (Abdullayeva, 2016, s.18). B.Vahabzadə dilində belə cümlə quruluşları onun düşüncə zənginliyini ifadə vasitələrinin rəngarəngliyini və ədəbi ustalığını göstərir.

"Hazırda bədii üslub dilimizin özəlliyini qoruyur. Bu üslub dilimizin aktual problemlərini də üzə çıxara bilir" (Həsənova, 2024, s. 23).

Biri deyir ki, sənət təbiətin səsidir.
Biri deyir ki, sənət eşqin təranəsidir.
Biri deyir ki, sənət hər bir şeydən öncədir,
Biri deyir ki, sənət adicə əyləncədir.
Biri deyir ki, sənət cəlb edə bilmir məni,
Biri deyir ki, sənət insan düşüncəsini,
Fikrini, xəyalını uçurur qanadında (Vahabzadə, 2004, I c, s.11).

Bu misraların hamısı tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələrlə ifadə olunmuşdur. İlk baxışdan adi görünsə də, onların hər biri mükəmməl fikirlərin qaynağıdır. Bu misralar sintaktik vahidlər vasitəsilə təkrarın gözəlliklərini və fonetik imkanlarını ortaya qoyaraq bədii dilin axıcı təbiətini ifadə edir. "Azərbaycan bədii dilində şeniş şəkildə işlənən təkrir növləri sırasında cümlənin təkrarı xüsusi üslubi əhəmiyyətə malikdir (Bəylərova, 2008, s. 11). Bədii dilin axıcılığı təkcə əsərdəki fikirləri müəyyənləşdirməyə kömək etmir, həm də qeyri-müəyyən hisslər yaradır. Bu, şairə dərin şəxsi və ya ənənəvi duyğuları formal ifadələrlə diqqəti cəlb edən şəkildə üzə çıxarır. Sözsüz ki, bu məsələdə sintaktik vahidlər də müəyyən vəzifə daşıyır. "Azərbaycan dilinin cümlələri quruluşca zəngindir. Bu dildə sadə cümlələrin, içərisində feli tərkiblər (feli bağlama, feli sifət və məsdər tərkibləri) olan sadə cümlələrin, həmcins üzvlü sadə cümlələrin, mürəkkəb cümlələrin - tabeli və tabesiz mürəkkəb cümlələrin olması sübut edir ki, dilimiz sintaktik quruluş etibarilə dünyanın ən zəngin dillərindən biridir" (Abdullayev, Seyidov, Həsənov, 2007, s. 7). Şeir və ya nəsr mətnlərində bu cümlələrin iştirakı vacibdir. "Mətn üçün başlıca əlamət onun tam məzmunlu nitq parçası olmasıdır. Burada dilin bütün quruluşuna dair əlaqələrin vəhdəti mövcud olur" (Qurbanov, 2019, s. 8). Bəxtiyar Vahabzadənin dilində bütün cümlə növlərinə rast gəlirik. Xüsusilə də həmcins üzvlü cümlələr şairin dilində xüsusi ahəng yaradır:

Külək əsdi
Gah imandan, gah gümandan,

Gah o yandan, gah bu yandan
Otlar əydi başlarını
Öz içindən yana-yana.
Gah o yana, gah bu yana (Vahabzadə, 2004, I c, s. 112).

Bəxtiyar Vahabzadənin dilindəki xitablar, onun poeziyasının və publisistik yaradıcılığının mühüm xüsusiyyətlərindəndir. Bu xitablar, həm milli özünüdərk prosesini, həm də ana dilə olan münasibəti ifadə edir. Xitablar qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmasa da, onun semantikası ilə bağlıdır. Poeziyamızda olduğu kimi B.Vahabzadə dilində diqqəti cəlb edən cəhət öz-özünə müraciətdir.

Neçə yol vədə verib əhdə vəfa qılmadı yar,
Bəxtiyar! Qəlbin axır düşdü talandan-talana (Vahabzadə, 2004, I c, s. 278).

Şair “ ey “ nidasından geniş istifadə edir.

Gördüm vaxtın fitnəsini, felini,
Ey Bəxtiyar, saxla görək dilini (Vahabzadə, 2004, I c, s. 278).

Ey Bəxtiyar, ah atəşi söz rənginə girməz,
Həm dərdli qürub çağı və həm dan yeridir Rast (Vahabzadə, 2004, II c, s. 203).

Şairin yaradıcılığında fərqli məqamlarda işlənən xitablara da təsadüf edirik .Xitablar söz birləşmələri ilə birlik təşkil edir

Ürəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış (Vahabzadə, 2004, II c, s. 8).

S.Alməmmədova yazır: “Bəxtiyar Vahabzadənin şeirlərində söz birləşməsinin tərkibinə pərçimlənən xitablara təsadüf edilir (Alməmmədova, 2010, s. 21).

Beləliklə, şeir dilində sintaktik strukturların öyrənilməsi vacibdir. Sintaksis əsərin tempini, ritmini və tonunu formalaşdırır, mürəkkəb fikirləri çatdırmağa, fərqli üslub çalarları yaratmağa kömək edir. Sintaktik vahidlər müxtəlif mühitlərdə bədii üslubu formalaşdıran qiymətli vasitələrdir. Sintaksis sənətkarın fərqli üslubunun qurulmasının əsasını təşkil edir. Bu vahidlər incə və ya açıq, mürəkkəb və ya sadə ola bilər, lakin bədii ifadənin müəyyən edilməsində onların rolu vardır.Bəxtiyar Vahabzadənin bədii dili onun sintaktik ustalığını təşkil edir. Sintaktik strurkturlar şairin düşüncə tərzini, emosional dünyasını, ictimai-siyası mövqeyini ifadə etməkdə mühüm rol oynayır, onu fərqli üslub sahibi kimi təqdim edir.

## Nəticə

Bəxtiyar Bahabzadənin əsərlərinin linqvistik təhlili göstərir ki, bədii üslubda sintaktik vahidlərin rolu əvəzolunmazdır. Onlar yalnız dilin quruluşunu deyil, həm də əsərin estetik təsirini, oxucunun təxəyyülünü və emosional vəziyyətini formalaşdırır. Sintaktik vahidlər vasitəsilə şair həm ideyalarını, həm də hiss və duyğularını dərindən və zəngin şəkildə ifadə edir. Bədii ədəbiyyatın sənətkarlıq tərəfi, dilin təbii və adi quruluşlarını daha təsirli və mənalı şəkildə inkişaf etdirməkdən keçir. Bu məqsədin reallaşmasında sintaktik vahidlər mühüm rol oynayır.

## Ədəbiyyat


1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. (2007). Müasir Azərbaycan dili. Bakı, Şərq-Qərb, 424 s.
2. Abdullayeva X. (2016). Cümlə üzvləri və mürəkkəb cümlə komponentləri sırasının nəzəri əsasları. (XIII-XIV əsr Azərbaycan ədəbi dil materialları əsasında). Avtoreferat. Bakı, AMEA mətbəəsı. 26s.
3. Alməmmədova S. (2010). Bəxtiyar Vahabzadə poeziyasının dili. Bakı, Elm,76s.
4. Bəylərova A. (2008). Bədii dildə üslubi fiqurlar. Bakı, Nurlan, 212 s.
5. Əlizadə F. (1998) Cümlənin aktual üzvlənməsi. Bakı, Elm,125 s.
6. Əsgərova Qənirə. (2015). Bəxtiyar Vahabzadə dilində söz ifadə yaradıcılığı məsələləri Filologiya məsələləri № 6, 452-457
7. Həsənova S. (2024). "Azərbaycan dilinin poetik linqvistikası" fənni haqqında. Azərbaycan dili və ədəbiyyat tədrisi, № 4 (282), 19 – 27.
8. Kazımov Q. (2007). Müasir Azərbaycan dili.Sintaksis.Bakı, Təhsil, 468s.
9. Qasımova T.(2022). Sadə cümlənin məqsəd və intonasiya görə növlərində söz sırası. Elmi İş №10, cild 16., s. 55-61
10. Qurbanov A. (2019). Bədii mətnin linqvistik təhlili. Bakı, AMEA, 552 s.
11. Nağıyeva T. (2024) Cümlədə söz sırası sintaktik təkamülün aspektlərindən biri kimi. Elmi Tədqiqat Beynəlxalq Elmi Jurnal. İmpakt Faktor: 1.172. Cild: 4 Sayı: 9 / 20-24.
12. Vahabzadə B (2004). Seçilmiş əsərləri, I c. Bakı, Öndər, 328 s.
13. Vahabzadə B (2004). Seçilmiş əsərləri, II c. Bakı, Öndər, 320 s.


**Daxil oldu: 28.05.2025**
**Qəbul edildi: 11.07.2025**